

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 123 (21.275)

24 iyun 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 23 iyun tarixli Sərəncamı ilə maşınqayırma sənayesinin inkişafında xidmətlərinə görə maşınqayırma sənayesinin bir qrup işçisi təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının maşınqayırma sənayesinin işçisi də vardır.

**"Tərəqqi" medalı ilə**

Abdullayev Musa Əsgər oğlu

*24 iyun Maşınqayırma sənayesi işçilərinin peşə bayramıdır*

## Muxtar respublikada maşınqayırma sənayesi inkişaf etdirilir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 19 noyabr tarixli Sərəncamına əsasən, hər il iyunun 24-ü Azərbaycanda "Maşınqayırma sənayesi işçilərinin peşə bayramı" kimi qeyd olunur.**



Ölkəmizdə sənayeləşmənin inkişaf tarixi ötən əsrin 70-ci illərindən başlamışdır. Azərbaycanın iqtisadiyyatına, xalq təsərrüfatına dərindən bələd olan ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həmin dövrdə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində sənayeləşməyə diqqət artırıldı, ölkəmizin aqrar iqtisadiyyatdan sənaye iqtisadiyyatına keçidinin əsası qoyuldu. Nəticədə, ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi.

Ümummilli liderin rəhbərliyi ilə hələ Sovetlər Birliyi dövründə Azərbaycanda neft maşınqayırması əsaslı inkişaf yoluna qədəm qoymuş və tezliklə bir sıra vacib istiqamətləri əhatə edən maşınqayırma sənayesi kompleksi yaradılmışdır. Yüksək əmək və elm tutumuna malik olan bu sənaye sahəsi həmin dövrdə 160-a yaxın müəssisə və təşkilatı, 110 min nəfərdən çox fəhlə və mütəxəssisi birləşdirmiş, minlərlə çeşiddə məhsul istehsal etmək imkanına malik olmuş, respublikamızın ümumi sənaye istehsalının çox hissəsi məhz bu sahənin payına düşmüşdür. Bir sıra strateji müəssisələr güclü istehsal imkanlarına görə seçilmiş, Gəncə Avtomobil Zavodu, Bakı və Sumqayıtdakı strateji maşınqayırma müəssisələri rentabelli iş fəaliyyəti, potensial imkanları ilə ölkə iqtisadiyyatının inkişafına təkan vermişdir. Regionda bir çox iqtisadi subyektlərin maddi-xammal təminatında və ehtiyat hissələrlə təchiz olunmasında mühüm rol oynayan bu müəssisələr istehsal etdiyi materialların – maşın və onların hissələrinin istehsalına görə postsovet məkanında fərqlənmişdir.

Böyük inkişaf tarixi keçən maşınqayırma sənayesi ümumi sənaye strukturunda xüsusi çəkiyə malik olmaqla ölkə iqtisadiyyatının milli gəlir baxımından mühüm sahəsini əhatə edir. Ötən əsrin sonlarından başlayaraq sənayenin bütün sektorlarının, o cümlədən maşınqayırmanın inkişafı üçün xüsusi proqramlar icra edilmişdir. Müəssisələrin özəlləşdirilməsi, səhmdar cəmiyyətlərə çevrilməsi, eləcə də postsənaye dövründə mühüm əhəmiyyətə malik müəssisələrin maddi-texniki bazasının yenidən qurulması, yeni istehsal sahələrinin yaradılması maşınqayırmanın tamamilə yeniləşməsinə, real bazara uyğun fəaliyyət göstərməsinə səbəb olmuşdur. Son illər maşınqayırma müəssisələrinin yeni texnologiyalar əsasında



təchizatı isə onların istehsal gücünün artmasına səbəb olmuşdur.

Hazırda Azərbaycanda maşınqayırma sənayesi üzrə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələr fəaliyyət göstərir. Bu sırada avtomobillərin istehsalı xüsusi əhəmiyyət daşıyır. Ümumiyyətlə, avtomobil sənayesi maşınqayırmada əsas sahə kimi nəzərə çarpır və dünyada avtomobil istehsalı rəqabətinin dərinləşdiyi bir dövrdə Azərbaycan öz milli brendi ilə tanınmağa başlayıb. Bu sahənin inkişafının əsas göstəricilərindən biri odur ki, bu gün ölkədə maşınqayırma sənayesi təkcə paytaxt Bakını və iri şəhərləri əhatə etmir. Artıq maşınqayırma sənayesinin də regionlarda inkişafı təmin edilmiş və bölgələrdə bir çox iri maşınqayırma zavodları fəaliyyətə başlamışdır.

Ölkəmizdə avtomobil bazarı daha çox xarici ölkələrin istehsal məhsulları hesabına təmin olunsa da, son illər yerli və müştərək müəssisələrin istehsal fəaliyyətinin güclənməsi nəticəsində milli brendlər tədricən daxili bazarda xüsusi yer tutmağa başlamışdır. Dünyanın nəhəng maşınqayırma müəssisələrinin Azərbaycanda öz istehsal sahələrini yaratmaq niyyətlərinin gerçəkləşməsi bu sahənin yüksək inkişafına təminat verir. Maşınqayırma sənayesinin davamlı inkişafı isə minlərlə iş yerlərinin açılması deməkdir. Bu da məşğulluq problemlərinin həlli, insanların sosial vəziyyətlərinin yaxşılaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında da yeni texnologiyaların tətbiqinə əsaslanan istehsal sahələrinin, xüsusilə avtomobillərin buraxılışı diqqət mərkəzindədir. Naxçıvan Avtomobil Zavodunun istifadəyə verilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada maşınqayırma sənayesi üzrə ixtisaslı mütəxəssislərin yetişməsi bu sahənin inkişafına öz təsirini göstərmişdir. 2010-cu ildə 37 nəfər heyətlə fəaliyyətə başlayan zavodda hazırda 65 mütəxəssis çalışır.

İllik istehsal gücü 5 min avtomobil olan zavodda hazırda 9 modeldə avtomobil istehsal olunur. Bu gün Naxçıvan Avtomobil Zavodunun istehsalı olan avtomobillərə təkcə muxtar respublikada deyil, ölkənin digər bölgələrində də tələbat böyükdür. Azərbaycanın müxtəlif şəhər və rayonlarında zavodun satış obyektlərinin fəaliyyət göstərməsi bunu təsdiq edir. Öz texniki göstəricilərinə və dizaynına görə seçilən bu avtomobillər daxili bazarda xüsusi yer tutmaqla yanaşı, xarici bazara da yol tapmışdır. Artıq bu ildən etibarən "NAZ-Lifan LF-330", "LF-720" və "X-60" modellərinin Belarus Respublikasına ixracına başlanılmışdır.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə sosial qayğıya ehtiyacı olan insanlara və veteranlara "NAZ-Lifan LF-320" model avtomobillərin verilməsi "NAZ-Lifan" brendinə olan marağın və etibarın daha bir göstəricisidir. 2011-ci ildən bu günədək bu məqsədlə 2397 ədəd avtomobil istehsal olunaraq təhvil verilmişdir. Bu ilin sonuna kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün daha 400 avtomobilin istehsalı nəzərdə tutulmuşdur.

Hazırda ölkəmizdə birinci Avropa Oyunları keçirilir. Təbii ki, dünyanın diqqətini özünə cəlb edən mötəbər bir yarışa sponsorluq etmək hər müəssisənin arzusu və beynəlxalq miqyasda daha geniş tanınmaq imkanı əldə etməsi deməkdir. Bu baxımdan oyunların təşkilində tərəfdaş kimi iştirak etməsi Naxçıvan Avtomobil Zavodunun qazandığı mühüm nailiyyətdir. Bu məqsədlə zavodun istehsalı olan 280 avtomobil Bakı şəhərinə göndərilmişdir. Hazırda oyunların təşkilində bu avtomobillərdən istifadə olunur.

*Peşə bayramlarını qeyd edən maşınqayırma sənayesi işçiləri istehsal çeşidlərinin və həcminin artırılması, ixrac potensialının genişləndirilməsi məqsədilə bundan sonra da səylə çalışacaqlar.*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

*Dünən Şərur Rayon İcra Hakimiyyətində vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı tədbir keçirilib. Tədbiri Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açıb.*

## Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı tədbir keçirilib



Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, nazirliyin rayon və şəhər qeydiyyat şöbələri ilə yanaşı, yerli inzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən də doğumun, nikahın bağlanmasının və ölümün qeydiyyatı aparılır. Ötən dövr ərzində muxtar respublikanın bütün rayonlarında inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün seminarlar təşkil edilib və onlar müvafiq normativ-hüquqi aktlardan çıxarışlarla təmin ediliblər. İnzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən doğum, nikah və ölümün qeydiyyatının aparılması üçün müvafiq metodik köməklik göstərilməsi və hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır.

Qeyd olunub ki, Şərur rayonunda doğumun, nikahın və ölümün qeydiyyatı 52 inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə rəsmiləşdirilir. 2009-2014-cü illər ərzində Şərur rayonunda inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün 16 dəfə seminar təşkil olunub. Nazirlik tərəfindən inzibati ərazi dairəsi üzrə nümayəndəliklər müvafiq reyestr, akt qeydləri və şəhadətnamələrlə vaxtında təmin ediliblər. Şərur rayonunun inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2014-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 12 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün hərtərəfli metodik köməklik göstərilib. Lakin bütün maarifləndirmə tədbirləri və yoxlamalara baxmayaraq, bu qurumların vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsindəki fəaliyyətlərində nöqsanlar qalmaqdadır. Belə ki, 2014-cü ildə və 2015-ci ilin birinci rübü ərzində keçirilən yoxlamalar zamanı Aşağı Aralıq, Yuxarı Aralıq, Muğancıq-Mehrab, Sərxanlı, Tumaslı, Maxta, Axaməd, Tənənəm, Danyeri, Dərvişlər, Çomaxtur, Yuxarı Daşarx, Çəmənli, Yengicə, Cəlilkənd, Xanlıqlar, Kərimbəyli və Məmmədsabir kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin fəaliyyətində nöqsanlar aşkar edilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikanın bütün rayonlarında inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün yeni binalar tikilib və müasir standartlara uyğun iş şəraiti yaradılıb. Məhz bu diqqət və qayğı nəticəsində Şərur rayonunun inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri də müasir inzibati bina və iş şəraiti ilə təmin olunublar. Yaradılan şərait bu qurumların üzərinə mühüm vəzifələr qoyur.

Vurğulanıb ki, hər bir inzibati ərazi dairəsi üzrə nümayəndəlik fəaliyyətini "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası Ailə Məcəlləsinin, notariat haqqında qanunun və kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə uyğun qurmalı və vətəndaşlıq vəziyyəti aktları qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir. Xüsusilə də nikah qeydiyyatı zamanı müraciət etmiş şəxslərin iştirakı təmin edilməlidir.

Tədbirə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov yekun vuraraq rayonda dövlət qurumları üçün yaradılan müasir şəraitin müqabilində inzibati ərazi dairəsi üzrə nümayəndələrdən nümunəvi iş tələb olunduğunu bildirib, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı zamanı qanunvericiliyin tələblərinə əməl olunmasına xüsusi diqqət göstərilməsinin vacibliyini vurğulayıb.

## İxracın həcmi idxalı üstələyib

*Ölkəmizin ixrac potensialının artırılmasında muxtar respublikamızın da payı az deyildir. Naxçıvanda istehsal olunan sənaye və kənd təsərrüfatı məhsulları xarici bazarlarda özünə yer tapdıqca bu potensial daha da artmaqdadır.*

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, cari ilin yanvar-may ayları ərzində muxtar respublikamızın xarici ticarət dövriyyəsində ixracın payının artımı qorunub saxlanılmışdır. Belə ki, bu müddətdə muxtar respublikada ümumi dəyəri 141 milyon 845 min ABŞ dolları həcmində olan xarici ticarət dövriyyəsinin 122 milyon 829 min manatını ixrac təşkil etmişdir. İxracın artması valyuta daxilolmalarının artmasına və ixrac edilən məhsulların dünya standartları səviyyəsinə çatdırılmasına imkan verir. Muxtar respublikada ixracın həcmi idxalı 6 dəfədən çox üstələməkdədir. Bu da, öz növbəsində, xarici ticarət balansında müsbət saldonun saxlanılmasına imkan yaradır. Belə ki, son bir ildə muxtar respublikada yerli istehsalın stimullaşdırılması və idxaləvəzləyici məhsul istehsalının artırılması sayəsində idxalın həcmində də azalma müşahidə olunaraq 19 milyon 15 min ABŞ dolları səviyyəsində olmuşdur. Bu da, öz növbəsində, ötən ilin müvafiq dövrü ilə müqayisədə 60 faiz azalma deməkdir. Muxtar respublikada ixracın səviyyəsindəki artım iqtisadiyyatın şaxələndirilməsi və yerli məhsulların xarici bazarlara çıxarılması istiqamətində həyata keçirilmiş işlərin nəticəsində əldə olunmuşdur.

**Xəbərlər şöbəsi**

# Görkəmli sərkərdənin 120 illik yubileyi ilə əlaqədar elmi konfrans



*2015-ci ilin avqust ayında görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Cəfərqulu oğlu Naxçıvanskinin anadan olmasının 120 illiyi tamam olur. Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçib. O, Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr verib. Böyük sərkərdənin ölkədə yüksəkixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir. Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyalarına məruz qalan və totalitarizmin qurbanına çevrilən vətənpərvər şəxsiyyətlərdəndir.*

Bu fikirlər Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin 120 illik yubileyi ilə əlaqədar keçirilən elmi konfransda səslındirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə keçirilən konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 2 aprel tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə aprel ayının 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamdan irəli gələn vəzifələrin icrası istiqamətində AMEA Naxçıvan Bölməsi tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilir.

Elmi konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyevanın "General-mayor Cəmşid Naxçıvanskinin həyatı və fəaliyyəti (1895-1917-ci illər)", həmin institutun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin "Ümummilli lider Heydər Əliyev və Cəmşid Naxçıvanski", institutun şöbə müdiri İlhami Əliyevin "Cəmşid Naxçıvanskinin Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyəti və erməni daşnaklarına qarşı mübarizəsi", institutun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun "Cəmşid Naxçıvanskinin Sovet hakimiyyəti illərində ordu quruculuğu və hərbi kadrların hazırlanması sahəsində fəaliyyəti" mövzularında məruzələri olub.

Məruzələrdə qeyd edilib ki, unudulmaz sərkərdə Cəmşid Naxçıvanski yunkerlikdən sərkərdəyədək yüksəlib. Arxiv sənədlərindən, müasirlərinin xatirələrindən məlum olur ki, o, zəngin və maraqlı həyat yolu keçib. Xan əsilli sərkərdə ulu babalarının və atasının döyüş yolunu zəfərlərlə, özünəməxsus istedad və bacarıqla davam etdirib. Axtarışlar zamanı məlum olub ki, onun haqqında Azərbaycanda, o cümlədən keçmiş Sovet İttifaqında, əsasən, 1970-ci ildən sonra məqalələr yazılıb. 1969-cu ilin 14 iyulunda Azərbaycanın rəhbəri seçilən ulu öndər Heydər Əliyevin Cəmşid Naxçıvanskinin adının unudulmaması üçün atdığı qəti, ciddi addımlar nəticəsində qəhrəman sərkərdə haqqında elmi və elmi-publisistik məqalələr işıq üzü görməyə başlayıb. Ümummilli liderimiz Heydər Əliyev hələ 1970-ci ilin avqustunda "Cəmşid Naxçıvanskinin adının əbədiləşdirilməsi haqqında" qərar verib. Bu qərara əsasən, generalın vətəni Naxçıvanda ev-muzeyi yaradılıb. Qərarda yeni yaradılacaq respublika hərbi təmayüllü məktəbə Cəmşid Naxçıvanskinin adının verilməsi barədə bənd də olub. O dövrdə bu, böyük cəsarət nümunəsi, millətin tarixi şəxsiyyətinin layiq olduğu səviyyədə bəraəti yolunda atılan dəyərli addım, həm də ümummilli liderimizin məxsus olduğu millətin sərkərdələr sülaləsinə böyük töhfəsi idi.

***İyunun 23-də Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Babək Rayon İcra Hakimiyyəti ilə birgə rayonda sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr barədə yığıncaq keçirib.***

# Babək rayonunda sığorta fəaliyyəti müzakirə olunub

Yığıncağı Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev açaraq rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək sığorta olunmağın vacibliyindən danışıb, baş verən bədbəxt hadisələrə qarşı vaxtında sığortalanmağın faydalarını diqqətə çatdırıb. Baş direktor hazırda tətbiq olunan icbari və könüllü sığortaların əhəmiyyətindən də bəhs edərək bu sahədə Babək rayonunda müəyyən işlər görüldüyünü bildirib. Çıxışda daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, eləcə də könüllü sığorta növlərindən olan ev əmlakının sığortası, avtonəqliyyat vasitələrinin tam sığortası, fərdi qəza sığortası, mal-qaranın sığortasının hüquqi və fiziki şəxslər üçün əhəmiyyəti baş vermiş konkret hadisələr ətrafında təhlil edilərək tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə Babək rayonunda sığorta fəaliyyəti sahəsində görülmüş işlər ətraflı təhlil edilib, daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə görülmüş işlərdən və qarşıda duran vəzifələrdən bəhs olunub. Bildirilib ki, Babək rayonunda icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Əhali arasında sığorta sahəsində maarifləndirmə tədbirlərinin genişləndirilməsi, insanların sığorta savadlılığının artırılması və sığorta mədəniyyətinin inkişaf etdirilməsi yolu ilə yaradılmış sığorta ənənələrinin dərinləşdirilməsi və bunun vasitəsilə bütün vətəndaşlar üçün etibarlı sığorta təminatını yaratmaq qarşımıza qoyulan vəzifələrdəndir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Babək Rayon Şöbəsinin və Babək Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsinin nümayəndələri görülmüş işlər barədə məlumat veriblər.

Tədbirə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev yekun vurub.

**Xəbərlər şöbəsi**

***Bu il Azərbaycan milli mətbuatının 140 illik yubileyi qeyd edilir. Milli mətbuatın ölkəmizin ictimai-siyasi və mədəni həyatında yerini, vətəndaş cəmiyyətinin inkişafında, milli-mənəvi dəyərlərin təbliğində, gənc nəslin vətənpərvərlik tərbiyəsi sahəsində rolunu nəzərə alan dövlət başçısının 2015-ci il iyunun 2-də imzaladığı Sərəncama əsasən keçirilən tədbirlər bir daha ölkəmizdə mətbuata verilən yüksək qiymətin növbəti təzahürüdür.***

*Azərbaycan milli mətbuatı – 140*

# Dövrün mütərəqqi fikirlərini əks etdirən milli mətbuatımız böyük inkişaf yolu keçib

Muxtar respublikamızda da mətbuat daim diqqət və qayğı ilə əhatə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycan Prezidentinin həmin Sərəncamının icrasını təmin etmək məqsədilə "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nı təsdiq edib.

Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında milli mətbuatın yaranması tarixi həmişə əlamətdar hadisələrlə yadda qalıb. Mətbuatın 130, 135 illiyi Azərbaycanda və muxtar respublikada yüksək səviyyədə qeyd olunub. Çünki milli oyanışımızın və tərəqqinin sivil əsaslarının yaradılmasının mühüm vasitəsi olmuş anadilli mətbuatımız həm də çoxəsrlik yazılı tariximizin zəngin salnaməsini yaradıb, bu gün isə 24 illik blokadaya meydan oxuyan 20 illik Naxçıvan möcüzəsinin, intibahın salnaməsini yaratmaqdadır.

Məhz 140 il bundan əvvəl böyük maarifçi-publisist, ictimai xadim Həsən bəy Zərdabinin misilsiz səyləri ilə işıq üzü görmüş ilk milli qəzetimiz "Əkinçi" xalqa söz və qələmlə xidmət etməyin mükəmməl nümunəsini göstərmişdir. Xalqımızın həyatına işıq saçan "Əkinçi"nin səpib-becərdiyi söz tarlası ötən 140 ildə gül-çiçəkli bağ-bağçaya çevrildi.

"Əkinçi" maarifçilik ideyalarını özünə yenilməz bayraq etmiş ilk Azərbaycan mətbuat nümunəsi idi. Bu da səbəbsiz deyil. Belə ki, XIX əsrdə Azərbaycanda maarifçilik hərəkatının və maarifçilik ideya cərəyanının aparıcı qüvvələri, necə deyərlər, cərəyanın təməl daşını qoyanlar məhz Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabi idi. Zərdabinin nəzərində maarifçilik cəmiyyətin tərəqqiyə doğru inkişafının, cəmiyyəti bütün bəlalardan xilas etməyin yeganə vasitəsi idi. O, anadilli mətbuatı milli mövcudluğu qoruyub saxlamaq yolunda bir vasitə kimi görürdü.

"Ətrafda müsəlman qardaşlar birbir düşmənimiz əjdahanın ağzına düşüb yox olduğunu görməyir və görmək də istəmir. Belədə qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur ki, kağız üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin... Sonra düşmənin düşmənçiliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olmağı aşkar olar", – deyən Zərdabi minbir əziyyət və cəfa ilə nəhayət, bu məqsədinə çatdı. 1875-ci il iyulun 22-dən "Əkinçi" adlı qəzeti nəşr etməklə ictimai şüurda inqilabi dəyişikliyə yol açacaq, milli düşüncəni, inkişafı təlqin edən məqalələrin dərc edilməsinə nail oldu. Bununla o, insanları maarifllənməyə, elmə, bilik öyrənməyə, cəhalətdən xilas olmağa səslədi, inkişafın qarşısında maneəyə çevrilən bəndləri dağıtdı, durğun suları hərəkətə gətirdi, Azərbaycanda nümunəvi qəzetçiliyin təməlini qoydu.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamında da ilk milli qəzetimizin nəşrə başlaması mədəniyyət tariximizin ciddi bir hadisəsi kimi dəyərləndirilir, "Əkinçi" qəzetinin həqiqət carçısı olduğu, xalqımızın maarifləndirilməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynadığı vurğulanır. Sərəncamda deyilir: ***"1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas-alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi öz adını tarixə yazmışdır. Qəzet dövrün qabaqcıl ideyalarını təbliğ etmiş, insanları dini mövhumata və cəhalətə qarşı mübarizəyə çağırmış, ictimai-siyasi və bədii düşüncənin inkişafına güclü təsir göstərmişdir. "Əkinçi"nin bəyan etdiyi prinsipləri rəhbər tutan və onun ənənələrini davam etdirən Azərbaycan mətbuatı sonrakı illərdə dövrün mütərəqqi fikirlərini əks etdirmiş, cəmiyyəti düşündürən məsələləri ictimai müzakirəyə çıxarmış, milli-mənəvi dəyərlərin təbliğində, insanların maariflənməsi və milli şüurun formalaşmasında, xalqımızın müstəqillik arzularının gerçəkləşməsində mühüm rol oynamışdır".***

Sonrakı dövrlərdə "Əkinçi" ənənələrindən bəhrələnən ilk gündəlik milli qəzet "Həyat", ilk məfkurə jurnalı "Füyuzat", ilk satira jurnalı və xalq tribunası "Molla Nəsrəddin", ilk uşaq jurnalı "Dəbistan", ilk qadın jurnalı "İşıq" mətbuatı ölkəmizin ictimai-siyasi həyatının bayraqdarına çevirdi. Bir-birinin ardınca işıq üzü görən "İrşad", "Təzə həyat", "Tərəqqi", "Həqiqət", "Açıq söz", "Sədа", "Məktəb", "Rəhbər" kimi dövri nəşrlər cəmiyyətin inkişafına, insanların ictimai-siyasi proseslərə milli mənafe prizmasından yanaşmalarına rəvac verdi, inkişafa səbəb olan fikir müxtəlifliyinin yaranmasında xüsusi rol oynadılar.

140 illik yubileyini qeyd edən milli mətbuatımızın çar Rusiyası dövründəki 43, Azərbaycan Xalq Cümhuriyyəti zamanındakı 2 və Sovet İttifaqı dönəmindəki 71 illik tarixi ilə müstəqilliyimizin ötən 24 ilini müqayisə etdikdə bir daha əmin oluruq ki, bu gün ölkəmizdə azad, demokratik mətbuat formalaşıb, milli mətbuatımız çox böyük inkişaf yolu keçib. Şübhəsiz ki, mətbuatımıza dövlət qayğısı məhz 1970-80-ci illərdə özünün yüksək səviyyəsinə çatmışdı. Bu tendensiya ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəldiyi 1993-cü ildən etibarən davam etdi. 1995-ci il noyabrın 12-də – müstəqil dövlətimiz özünün ilk Konstitusiyasını qəbul etdikdən, yeni parlament seçildikdən sonra ulu öndər ölkədə teleradio yayımının keyfiyyətinin yaxşılaşdırılması məqsədilə yeni, müasir avadanlıqların alınmasına və quraşdırılmasına göstəriş verdi. Qafqazda ilk olaraq Azərbaycanda sovet dönəmindən qalan teleötürücü qurğular dəyişdirildi.

Ulu öndərin rəhbərliyi altında kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, söz, məlumat və fikir azadlığının təmin edilməsi sahəsində mühüm tədbirlər həyata keçirildi. Ümummilli lider Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə kütləvi informasiya vasitələri üzərində senzura ləğv olundu, bu sahənin inkişafını stimullaşdıran bir sıra zəruri tədbirlər həyata keçirildi. Bununla da, ölkəmizdə demokratik proseslərin genişlənməsi xüsusi önəm verildiyi bir daha təsdiqləndi.

Son 11 ildə mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin miqyası daha da genişləndi. Prezident İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən, redaksiyaların "Azərbaycan" nəşriyyatına olan 400 min manat məbləğində borcu dövlət büdcəsindən ödənildi. 2005-ci ildən mətbuatın 135 illik yubileyinə qədər 300-dək KİV əməkdaşı dövlət mükafatlarına və fəxri adlara layiq görüldü, dəfələrlə qəzet redaksiyalarına birdəfəlik dövlət yardımı edildi. Ölkə Prezidentinin 2012-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, Azərbaycan milli mətbuatının banisi, görkəmli ictimai xadim, böyük maarifpərvər Həsən bəy Zərdabinin 170 illik yubileyi ölkə miqyasında qeyd olundu.

Dövlət başçısının 2008-ci ilin iyulunda imzaladığı Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası" bu gün də böyük uğurla icra edilir. Həmin konsepsiyanın icrasında 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu böyük nailiyyətlərə imza atır.

2010-cu il iyulun 22-də dövlət başçısı mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirlərini nəzərdə tutan digər bir sərəncam da imzaladı. Sərəncama əsasən, mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsait ayrıldı. Ölkə rəhbərinin bu sərəncamı ilə jurnalistlərin əsas problemlərinin birinin də həlli istiqamətində qətiyyətli addım atıldı.

Naxçıvan Muxtar Respublikasında da mətbuatın inkişafına dövlət dəstəyi davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2000-ci il 29 mart tarixdə imzaladığı "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncam qədim diyarda mətbuatın inkişafına xüsusi töhfə verdi. 2010-cu il iyulun 22-də "Şərq qapısı" qəzeti redaksiyasının, Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyinin yeni binasının və mətbəəsinin, 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binasının yenidən qurularaq istifadəyə verilməsi, komitədə yeni nəsil rəqəmsal teleradio avadanlıqlarının quraşdırılması, "Kanal 35" televiziyasının, "Naxçıvanın səsi" radiosunun fəaliyyəti üçün lazımi şəraitin yaradılması muxtar respublikada həyata keçirilən mətbuat siyasətinin parlaq nəticələrindəndir. Bu gün muxtar respublikada işıq üzü görən qəzetlərin ən yüksək poliqrafik keyfiyyətdə çap olunması Naxçıvan mətbuatının böyük uğurlarından hesab edilir.

*Azərbaycanda maarif carçısı, həqiqətsevərlərin "xitabət kürsüsü" kimi ad qazanmış "Əkinçi" qəzetinin və tərəqqinin, inkişafın, milli həmrəyliyin, milli düşüncənin tərəfdarı olmuş Həsən bəy Zərdabinin muxtar respublikadakı davamçıları bu gün intibahın işığında uğurla fəaliyyət göstərirlər.*

**Rauf ƏLİYEV**



*Ordubad rayonunun ən səfalı guşələrindən biri olan Gənzə kəndindən yazı hazırlayacağımı eşidən yaşlı həmkarlarım elə bil sözləşiblərmiş kimi eyni sözləri deyirdilər: O kənd başqa kənddir, milli dəyərlərə, adət-ənənələrə sadiq yurd yeridir. Elə 4 il bundan əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kənddə olarkən Gənzəni Ordubadın incisi adlandıraraq deyib ki, bu kənd milli-mənəvi dəyərlərimizə, qədim adət-ənənələrimizə sədaqəti, haqqa, ədalətə sadiqliyi ilə həmişə fərqlənib.*

*Müasirləşən kəndlərimiz*

# Ordubadın incisi – *Gənzə*

...Kəndə çatmamışdan əvvəl yolboyu bu barədə çox fikirləşdim. Görən, bu kənd haqqında necə yazacağam? Təəssüratlarım necə olacaq? Kəndin bugünkü mənzərəsini qələmimlə təsvir edə biləcəyəmmi? Elə bu fikirlərlə də baxdım ki, Gənzə kəndinin gözəlliyinin sehrinə düşmüşəm. O anda şəhərin səsli-küylü ab-havasını xatırladım. Və düşündüm ki, oxucumun da özünü o kənddəki kimi hiss etməsi üçün Gənzədə gördüyüm gözəlliyi və sakitliyi necə təsvir edim? İnanın, Gənzə sanki Ordubada bir pay düşüb, elə bil ki, göydən yerə Günəş enib. Yaşıllıqlar qoynunda elə cilvələnir, görən desin, nazlı qızdır, nazlı gəlindir. Hər tərəfdə səssizlik. Təkcə Gənzə çayı sükutu pozur.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Qürbət Əliyevi çox axtarmaq lazım gəlmir. Gəlişimizdən xəbəri var. Onunla görüşürük. Səmimiyyətlə bizə "Xoş gəldin!" edir. Deyir ki, buyurun, gəzin kəndimizi qarış-qarış. Özünüzü öz evinizdəki kimi hiss edəcəksiniz. Bu kəndə yolu düşənlər həmişə burada belə hissləri yaşayıblar. Kimə istəsəniz, qonaq olun. Bütün qapılar açıqdır. Kimsə də soruşmayacaq ki, niyə gəlmisiniz? Kəndimizi ta uşaqlıqdan belə görmüşəm. Gənzəlinin qapısını açana "Xoş gəlmisiz, səfa gətirmisiniz" deyərlər. Evin qız-gəlini əl-ayaq edib samovara od salar, çay dəmlər. Limonun ən gözəli dərilər, kəsilər.

Və elə kəndi doğrudan da belə gördük. Əvvəlcə bu qədim və sonradan görəcəyim özəllikləri ilə seçilən Gənzəni gəzmək istədik. Qürbət müəllim də bizə qoşuldu. Bir-birindən yaraşıqlı evləri gördükcə heyrətimi gizlədə bilmirdim. Bu iki-üç mərtəbəli evlər və qarşısındakı bahalı avtomobillər kəndin xoş güzəranının göstəriciləridir. Bu barədə soruşmağa dəyməz. Hər şey göz qabağındadır. Sanki Gənzə "bir baxın, ay qonaqlar, gör necə yaşayıram", – deyə dilə gəlir. Həm dövlətin qayğısı, həm insanların zəhmətkeşliyi ucalardan uca edib Gənzəni.

Bir həyətdən gələn gülüş səslərini eşidirik. Qürbət müəllim bildirir ki, bura Hacıabbas Məmmədovun həyətidir. Həyətə keçirik. Üz-gözündən xeyirxahlıq yağan kişi ilə salamlaşıram. Xoş gəlmisiniz, – deyir.

Yaşını soruşduqda çox təəccüblənirəm. Maşallah deyəndə hiss edir təəccübümü.

– İşləyən adam qocalmaz, ay qızım. Həyətini göstərək: bax, kartofumuz, göyərtimiz, meyvələrimiz. Bazardan heç nə almırıq. Əkirik-becəririk, şəhərlərdə yaşayan qohumlarımıza da göndəririk. Gənzə torpağında yetişdirilən nemətlər adla deyilir. Əriyi, cəvizi, alması, şaftalısı...



Onun söhbətcil olduğunu hiss edirəm. Şirin Gənzə ləhcəsiylə kəndin adət-ənənələrindən söhbət açır. İş başında olduğuna görə çox söhbətə tutmaq istəmirəm. Amma maraqlı məlumatları oxucuma çatdırmaq üçün dediklərini dəftərçəmə qeyd edirəm.

Deyir ki, bu kənddə möhkəm birlik, bütövlük var. Kənddə heç bir evin qapısını bağlamazlar. Bayramlarda sahibinin olmadığı evlərdə belə, çıraq yandırılar. Bu kənddə heç kəsin heç kimin malında gözü olmaz. Kənddə adətdir: bir nəfər ziyarətə gedirsə, onu bütün kənd yola salır. Qarşılanma mərasimi də eləcə. Ziyarətdən qayıtdıqdan sonra verilən ehsanın kim tərəfindən hazırlandığını çoxları bilmir. Gənzəlilər üçün xarakterik olan ən başlıca xüsusiyyətlərdən biri onların gördükləri hər hansı xeyirxah işin kim tərəfindən həyata keçirildiyini deməmələridir.

Heç vaxt kənd toylarına dəvət üçün dəvətnamələr yazılmayıb. Bu gün də belədir. Bircə dəfə kənd meydanında elan olunur ki, filan vaxt filankəsin evində şadlıq mərasimi var. Naharda qadınlar iştirak edir, axşam isə kişilər. Milli toy adətlərimizə son dərəcə dəqiq əməl olunur. Heç kim mövcud ənənələrdən kənara çıxa bilməz. Gənzəlilər israfçılığı xoşlamırlar. Stolların üstünə düzülən nemətlərin qədərində olmasına xüsusi fikir verirlər. Kənd toylarında milliliyin qorunub saxlanılmasını ifa olunan musiqi nömrələrindən də görmək olar. Cavanlar oynamağa, adətən, yaşlı adamlar toydan getdikdən sonra çıxırlar. Gəlinə alma atmaq adəti hələ də Gənzədə yaşayır.

Deyirlər, elini-obasını sevməyən bir kəs yurduna-yuvasına övlad ola bilməz. Gənzədə yurda bağlılığın ən yüksək səviyyədə olduğunu gördüm. Hətta uzun illər buradan köçüb gedən gənclər əllərini bu kənddən götürməyiblər. Torpaq gənzəlilər üçün müqəddəsdir. Çünki bərəkəti, ruzini torpaqda tapıblar. Bir ovuc torpağı çörək qədər müqəddəs sayar, öpüb gözlərinin üstünə qoyarlar. Andları da torpaq, imdadları da torpaq.

Kənddə kəlağayılı analar gördüm. Gənzəli xanımlar pünhanlığı sevəndirlər, səliqə-sahman güdəndirlər. Adət-ənənə divanəsi, gözəllik pərvanəsidirlər. Məhz buna görədir, kənddəki ailələrin möhkəmliyi, uzunömürlülüyü bu gün nümunə göstərilir.

Kəndi gəzərkən təndir başına toplaşan qızlar gördük. Bizi görəndə gülüşdülər, sevindilər, yuxa təklif etdilər, çörək kəsin, – dedilər.

Çörək də nə çörək! Bu əvəzsiz nemətdən, müqəddəs ruzidən bir qismət daddıq. "Süfrəniz bol, eviniz çörəkli olsun" dedik, yolumuza davam etdik.

2011-ci ildə istifadəyə verilən məktəb binasının ətrafında və daxilində təmizlik işləri aparılırdı. Burada gənc müəllim İqbal Əliyevi həmsöhbət seçirəm. Gənzəli deyil. Ordubad şəhərində yaşayır. Deyir ki, məktəbimizi çiçək kimi saxlamağa can atırıq. Əgər bu ucqar dağ kəndində belə müasir məktəb binası tikilibsə, biz də gənzəli uşaqlara təhsil verməklə yanaşı, həm də bu təhsil ocağını qorumalıyıq. 2014-2015-ci tədris ilində məktəbi 8 nəfər bitirib. Pedaqoji kollektiv onların 6 nəfərinin tələbə adını qazanacağına əmindir.



Bir məqamı da vurğulamaq istəyirəm. Buranın insanları həm də çox saf və sadədirlər. Elə Hacıəkbər Əkbərovun ailəsində çay süfrəsi arxasında söhbət zamanı ev sakinləri ilə, evə gələn qonaqlarla söhbətimdə bunları daha aydın hiss elədim. Evdə hər şey təzə, səliqə-sahmanlı idi. Divardan asılmış xalçalar göz oxşayır, könül oxşayırdı. Elə bil dağların gülü-çiçəyi otağın divarlarına köçmüşdü. İncə zövqün, zərif barmaqların sehrindən yaranan bu xalçaları evin ağbirçəyi 79 yaşlı Sahat nənə toxuyub.

Sonra başlayırıq Hacıəkbər baba il söhbətləşməyə. Bir az keçmişə qayıdır, bir az indiki dövrdən danışır:

– Çox ağrılı günlər yaşamışıq. Ötən əsrin 90-cı illərində isə yaşadığımız günlər getsin, bir də gəlməsin. Aclıq, soyuq qış gecələri bir tərəfdən, bir tərəfdən isə bəzi siyasi qüvvələr bizi çox incidirdi. Amma biz yolumuzdan dönmədik. Gənzəlilər yaxşı başa düşürdü ki, onlar yalnız ümummilli liderin yaşayışında xoş günlərə qovuşa biləcəklər. Zaman sübut etdi ki, biz düzgün seçim etmişik. Və bəhrələrini də görürük. Çox sakit və firavan həyat yaşayırıq.

Fikir verirəm, kənddə gənc ailələr övladlarının oxumasına maraqlıdırlar. Axı bu məktəb binasında kim oxumaz? Şagirdlər pulsuz dərsliklərlə təmin olunurlar. Yanımda oturan növbəti hərbçi olmaq istəyir. Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmaq üçün imtahan verəcək. Əgər bu gün kənddə oxumaq üçün şərait yaradılmasaydı, növəm Səlim də uzun illər bundan əvvəl xarici ölkələrə üz tutub çörək pulu qazanan gənclərdən biri olacaqdı.

Söhbət zamanı oturduğumuz yerdən gözüm müasir kənd mərkəzinin yeni binasına sataşır. Necə də gözəl görünür yaşıllıqlar qoynunda. Kəndin axar-baxarlı guşəsində qərar tutan bu quruculuq ünvanı Gənzəyə ayrı bir yaraşıq, ayrı bir görkəm verir. Söhbətimizə davam edirik:

– Digər kəndlərdə yaradılan şərait kəndimizdə də yaradılıb. Kənd mərkəzindən istifadə edirik. Məktub və ya uzaq yerlərdə yaşayan qohumlara nəsə göndərəndə rayon mərkəzinə, Naxçıvan şəhərinə üz tutmuruq. Dünyanın istənilən nöqtəsiylə əlaqə yarada bilirik. Bu, kənd sakinləri üçün böyük xoşbəxtlikdir. Bu gün kənd yaşayış məntəqələrimizdə yaradılan şərait heç də şəhərlərimizdəkindən seçilmir. Vallah dövlətimiz bizi bizdən çox düşünür. İnsanların sağlamlığının qorunması üçün kəndimizdə müasir həkim ambulatoriyası istifadəyə verilib. Kəndimizdəki xidmət mərkəzi gündəlik tələbatlarımızın elə buradaca ödənilməsinə şərait yaradıb.

Elə bu məqamdaca bir məsələni də önə çəkmək istəyirəm. Gənzə kəndi arxasını məşhur Soyuq dağına söykəyib. Bu dağ Ermənistanla sərhəddədir. Ən yüksək mövqelərdə bizim əsgərlər Naxçıvanın sərhədlərini qoruyurlar. Gənzəlilər yaraşıqlı evlər ucaltmaqdan çəkinmirlər. Çünki arxayındırlar ki, o bölgədə möhkəm müdafiə sistemi yaradılıb. Yuxarıda da qeyd etdiyimiz kimi, uzun illər bundan əvvəl xarici dövlətlərə üz tutan ailələr də kəndə qayıdır. Burada özlərinə gün-güzəran qururlar. Onlar bilirlər ki, kənddə dövlət böyük infrastruktur yaradıb.

*Adətən, kənddən yazı hazırlayarkən biz jurnalistlər daha çox statistik rəqəmlərdən istifadə edir, ya da kənd sakinləri ilə söhbətə üstünlük veririk. Bu dəfə iki-üç müsahib seçdim. Kəndin bugünkü mənzərəsini az da olsa, oxucuma çatdıra bildiyimi düşünürəm. Sonda isə onu demək istəyirəm ki, məmləkətimin bir parçası olan Gənzə kəndi el qeyrətinin əyilməz vüqarı, sabaha inamın, saf əqidənin, cəsarətin, ucalığın nümunəsidir. Bu kəndlə qürur duymamaq mümkün deyil. Elə bura ayaq basandan qürurdan qanad bağlayıb uçmaq, məğrurluğa, zirvəyə boylanmaq, zirvələnmək istəyirsən. Bura kim gəlsə, bu yurd yerinin gözəlliyindən, insanlarının bütövlüyündən, birliyindən vəcdə gələr.*

**Sara ƏZİMOVA**

# Naxçıvanda türkiyəli rəssamların sərgisi açılıb

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Türkiyə Gözəl Sənət Əsərləri Sahibləri Peşə Birliyinin (GESAM) 30 nəfər üzvünün rəsm sərgisi təşkil olunub.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin və Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun birgə təşkilatçılığı ilə keçirilən sərgidə yağlı, sulu boyalarla, qrafika üsulu ilə çəkilmiş, eyni zamanda fotoşəkillərdən və heykəltəraşlıq nümunələrindən ibarət 70 əsər sərgilənir.

Sərginin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva bildirib ki, bu gün Naxçıvanda bütün sahələrdə olduğu kimi, mədəniyyət və incəsənət sahələrində də böyük nailiyyətlər əldə olunub. Son illərdə muxtar respublikada Azərbaycanın tanınmış rəssamı Bəhruz Kəngərlinin adını daşıyan muzeyin yaradılması, muxtar respublikanın Rəssamlar Birliyi üçün yeni binanın tikilərək istifadəyə verilməsi, Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət və rəsmxət, Naxçıvan Müəllimlər İnstitutunda isə Təsviri incəsənət müəllimliyi ixtisaslarının açılması da bu sahəyə göstərilən diqqət və qayğının nəticəsidir.



Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Nihat Erşen çıxışında sərginin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib. O, iki qardaş ölkə arasında bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində də əlaqələrin sürətlə inkişaf etdiyini qeyd edib.

Türkiyə Respublikasının Turizm Nazirliyinin nümayəndəsi və TRT-nin İdarə Heyətinin üzvü Orhan Kalkan, Türkiyə Respublikası Nazirlər Kabinetinin dövlət qulluqçularının etik davranış qaydalarına nəzarət qurumunun üzvü Metin İlyas Aksoy çıxış edərək bu cür tədbirlərin keçirilməsinin iki qardaş ölkə arasında mədəniyyət əlaqələrinin möhkəmlənməsinə xidmət etdiyini deyiblər.

GESAM-ın üzvü və Türkiyə Respublikası Turizm Nazirliyinin əməkdaşı Nezih Demirtepe mərasim iştirakçılarına GESAM haqqında ətraflı məlumat verib və sərginin təşkilatçılarına minnətdarlığını bildirib.

Sonra GESAM-ın rəhbəri, professor Osman Altıntaş tərəfindən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə təşəkkür plaketi, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən sərgidə iştirak edən türkiyəli rəssamlara isə təşəkkürnamələr təqdim olunub.

Sonra sərgiyə baxış olub.

Sərgi iyun ayının 25-dək davam edəcək.

**Xəbərlər şöbəsi**

*Dünyada sadə peşə sahələri kimi tanıdığımız çoxlu peşələr var. Bu peşələrin bir çoxu zaman keçdikcə, daha doğrusu, elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq sıradan çıxsa da, öz əhəmiyyətini saxlayan peşə və sənət sahələri də çoxdur. Belə peşələrdən biri də kankanlıqdır. Kankan peşəsi qədim peşə sahələrindən olub, insanların həyatında mühüm rol oynayıb. Hələ uzaq keçmişdən insanların içməli və təsərrüfat suyuna olan ehtiyacını ödəyən kankanlar kəhrizlərin çəkilməsində əsas rola malik olublar. Tarixən quru kontinental iqlimə malik Naxçıvanda da hazırda tarixi abidə kimi qiymətləndirilən kəhrizlərin qazılması, uzaq məsafələrdən çəkilərək əsas yaşayış məntəqələrinə çatdırılması mühüm əhəmiyyət kəsb edib. Məhz əhalinin su ilə təminatında mühüm rolu olan bu sahənin adamları, yəni kankanlar daim xalq tərəfindən sevilən, hörmət edilən peşə sahibləri kimi tanınıblar. Naxçıvanın ən yaşlı kankanlarından biri olan Yunis İbrahimovla görüşüb bu peşənin incəlikləri ilə bağlı həmsöhbət olduq.*

*Sadə peşə adamları*

# Su çəkmək savab işdir

***– Kankanlıq peşəsini seçmək hansı zərurətdən doğub, yəqin bunun bir səbəbi olub?***

– Əslində, bu peşəyə yönəlməyim ondan irəli gəlir ki, mənim atam da, babam da vaxtı ilə kankan olublar. Atam Naxçıvanın dillər əzbəri olan Kalba Musa kəhrizinin qazılmasında iştirak edib. Söhbət edirdi ki, 1903-cü ildə kəhrizin qazılmasına başlanılıb. İndiki çeşmənin töküldüyü yerdən Şıxmahmud vadisinə qədər 3300 metrlik kəhriz xəttinin çəkilməsi 8 ilə başa gəlib. O zaman Kərbəlayi Musa bu iş üçün 24 min qızıl onluq xərcləyib.

***– Bəs siz kankanlığa neçə yaşında başlamısınız və ilk qazdığınız quyu və ya kəhrizi necə xatırlayırsınız?***

– Kankanlığa 1948-ci ildə, 11 yaşımda, dediyim kimi atamın yanında başlamışam. Həmin vaxtlar, hətta ondan sonralar da Naxçıvanda kankan Abdulla, kankan Nəcəf kimi tanınmış kankanlar var idi. İndi hər ikisi dünyasını dəyişib. Bu peşəyə atamın yanında başlasam da, sonralar işin əsas incəliklərini Nəcəf kişidən öyrənmişəm. İşdən heç zaman qorxmamışam, çalışqan olmuşam və zəhmətimin də bəhrəsini görmüşəm. İlk kəhrizi isə Naxçıvan çayı vadisində qazmışam. Adına "Xan çeşməsi" deyirlər.

***– Yunis dayı, kankanlıq peşəsinin incəlikləri nədən ibarətdir? Yəni bir kəhrizin qazılmasında kankan hansı mərhələləri keçir?***

– Əlbəttə, birinci o lazımdır ki, işə həvəsin olsun. Həvəs, maraq olmazsa, həmin işdə uğur qazanmaq olmaz. İkincisi isə kankanlıq çətin sahədir, insandan səbir, dözüm, zəhmət tələb edir. Eyni zamanda kankanlıq insandan müəyyən qədər məntiq tələb edən bir sahədir. Təsəvvür edin ki, sizi kəhriz və ya quyu qazmaq üçün çağırıblar. Ancaq qazılacaq yer müəyyən edilməyib və yaxud müəyyən edilsə də, sizə görə bu seçim o qədər faydalı olmaya bilər. O zaman təcrübəyə əsaslanmalısan. Məsələn, su mənbələrini tapmaq üçün, əsasən, çay vadilərindən, sututarların kənarından, dağ və ya təpələrin yamac hissəsindən istifadə edirlər. Kəhrizlər yeraltı su mənbələridir. Bu mənbələr də, əsasən, yağış, qar sularından qidalanır. Fikir verirsinizsə, yağıntı az olan il Naxçıvanda kəhrizlərin də suyu az olur. Çox olanda isə əksinə. Bir də yeraltı su ehtiyatının çox olduğu ərazilərdə xüsusi bitkilər olur ki, bu bitkilərin kökləri metrlərlə aşağıya doğru uzanır və alt qatdakı sudan qidalanır. Belə ərazilərdə kəhriz quyularının qazılması hər zaman özünü doğruldur. Kəhrizlərin qazılması müəyyən mühəndislik bacarığı tələb edir. Buna görə də ərazidəki qazılacaq yer əvvəlcə müəyyən edilir. Buna "gümana" quyusu deyilir, yəni güman edilir ki, burada su ola bilər. Gümana quyusunu qazıb oradan suyun çıxacağına arxayın olduqdan sonra kankan indi aşağıya doğru, suyun axacağı istiqamətdə qazılacaq digər quyunun yerini müəyyənləşdirir. Bəzən bir yox, üç gümana quyusu qazılır, həm də bir-birindən üçbucaqlı formada yerləşmək şəklində. Və həmin quyulara rəngli maye və ya rəng tökürlər ki, yeraltı suyun hansı istiqamətdə axdığını bilsinlər. Bundan sonra quyulardan ən əlverişlisini, yəni suyu bol olanını daha da dərinləşdirərək suyadavamlı laya qədər qazırlar. Su-



daşıyıcı laydakı suyu tamamilə bir yerə yığmaq üçün sukeçirməyən lay üzərində lağımı bir az da dərinləşdirməklə suyu bir yerə toplayırlar. Sonra suyun axarı istiqamətində ikinci quyunu qazmağa başlayırlar. Quyu 2-3 metr qazıldıqdan sonra onun ağzına çarx qoyurlar. Quyu qazılıb müəyyən dərinliyə çatdıqdan sonra (buna "fərş" də deyirlər) dibindən lağım açmağa (kürə açmaq) başlayırlar. Lağımın düzgün qazılması üçün quyunun ağzına bir ağac uzadıb gümana quyusuna tərəf ustaya istiqamət verirlər. Lağım atarkən səhv etməmək üçün kankan həmişə geri, yəni işıq gələn tərəfə baxır. Lağımın uzunluğu çox olduqda, onda kankanlar iki tərəfdən qarşı-qarşıya qazırlar. Bu zaman kankanlar külüngün səsi ilə bir-birinin üzünə doğru qazırlar. Yerin altında külüngün səsi 10-15 metrlikdən aydın eşidilir. Bu səsə kankanlar "taqqa" deyirlər. Quyuda işləyən kankan yer üstündə olan kankana digər quyunun istiqamətini təyin etmək işində kömək edir. Bunun üçün kankan qulağını yerə söykəyərək yer səthində səsin haradan gəldiyi yeri dəqiqləşdirməsi üçün yerini dəyişdirməklə dayandığı nöqtənin yerin altından gələn səslə kürənin tam üstdə olmasını təsdiq edir. Sonra həmin nöqtədə 60 santimetr radiusunda dairə cızaraq yeni quyunu qazmağa başlayırlar. Quyunun fərşi lağımdan bir az yuxarı qalxdıqda onu qazıb lağım səviyyəsinə salırlar. Buradan çıxan ilkin su ikinci quyuya buraxılır. Su bu quyuda "boğulandan" sonra üçüncü quyudan buraya lağım atırlar. Beləliklə su boğula-boğula, sucarla ("sucar" lağımın su axan yerinə deyilir) axıra qədər aparılır və kürələr də bütün kəhrizboyu eyni ölçüdə və eyni səviyyədə qazılır. Bir şeyi də demək istəyirəm ki, kəhriz quyuları qazılan zaman əgər torpaqda qumluq çoxdursa, o zaman bir az enli qazmaq lazımdır ki, sonra torpaq uçub qazılan yeri doldurmasın. Buna görə də yeraltı kəhriz tunelləri qazılan zaman çox vaxt onun kənarlarını daşla hörürlər. Buna "saybənd" deyirlər. Keçmiş zamanlarda imkanlı şəxslər belə divarları bişmiş kərpiclərdən hördürərdilər.

***– Yunis dayı, kankanın istifadə etdiyi alətlər hansılardır?***

– Torpağı qazmaq üçün, əsasən, külüng, bel və ya kürəkdən istifadə olunur. Bundan əlavə, isgənə, torpağı doldurmaq üçün dol, çəkic, keçəbel, çıraq və sairdən istifadə olunur. Dol keçmiş zamanlarda dəridən tikilirdi, qulpu da olurdu. Qazılan torpağı çölə çıxartmaqda istifadə olunurdu. Bu işi görənlərə "dolkeş" deyirlər. İndi isə sənaye üsulu ilə hazırlanmış rezin vedrələrdən istifadə edilir. Məndə də biri var idi. Uzun müddət işlətmişdim, sonra baxımsızlıqdan qurudu. Dolu gərək təmiz saxlayasan, hər il duzlayasan. Keçəbellə də, əsasən, torpağı doldururlar. Torpağı çölə çıxartmaq üçün keçmiş zamanlarda da, indi də çarxlardan istifadə olunub. Çarxlar var ki, ayaqla işləyir, ələləri də var ki, əllə. Amma əllə işləyənlər daha rahatdır. Keçmişdə çarxları ağacdan hazırlayırdılar. Əsas gövdəsi hazır olduqdan sonra ona çarx bağlayırdılar.

***– Təxmini də olsa, indiyədək nə qədər quyu və ya kəhrizin qazılmasında iştirak etmisiniz?***

– *(Gülür).* Vallah çox olub, sayını itirmişəm. Təsəvvür edin də, ömrümün 45 ilini bu işə vermişəm. Həm də təkcə Naxçıvan şəhərində qazmamışam. Şərurda, Culfada, Ordubadda çox işləmişəm. Hətta 1964-cü ildə Füzuli rayonuna gedib orada da bir ildən çox kəhriz quyularının qazıntısında işləmişəm. Orada da Naxçıvanda olduğu kimi çoxlu kəhrizlər var. Bir neçəsini sonradan təmir etmişik. Bəzən bir kəhrizi təmir etmək yeni bir kəhrizin qazılmasından daha çətin olub.

***– Son illər muxtar respublikada kəhrizlərin təmir olunmasında xeyli işlər görülüb. Siz bu işlərdə necə iştirak etmisiniz?***

– Düz deyirsiniz, Naxçıvanda kəhrizlərin, çeşmələrin təmir olunmasına indi dövlət böyük diqqət göstərir. Mən də son 8 ildə Kəhrizlər İdarəsində işləmişəm, indi təqaüdə çıxmışam. Bu idarədə işlədiyim dövrdə şəhərdəki "Xan diki", "Lülə", "Kalba Musa", Kəngərli rayonunun Xıncab kəndində "Camışbatan", Culfa rayonunun Camaldın kəndində "Baş kəhriz", Babək rayonunun Məzrə kəndində "Kənd" kəhrizlərində işləmişəm. Əksəriyyətinin saybəndlərini də mən qoymuşam.

Su çəkdirmək, insanların suya olan ehtiyacını ödəmək bütün dövrlərdə savab iş sayılıb. Keçmişdə, indinin özündə də çoxlu xeyirxah insanlar olub ki, məhəllələrə, digər sahələrə su xətti çəkdirməyi müqəddəs iş hesab ediblər. İndi muxtar respublikada kəhrizlərin təmiri işində, artezian quyularının qazılmasında işləyən xeyli işçi qüvvəsi olsa da, onlar arasında öz işini bilən kankanlar da var. Bu kankanların bir qismi ilə bir yerdə işləmişik, öyrəndiklərimizi birgə tətbiq etmişik. Kankanın ömrü daim su axtarmaqla, suyu əldə etməklə keçir. Bu isə yeri qazmaqdan yox, necə qazmaqdan asılıdır. Sevinirik ki, Naxçıvanda Kəhrizlər İdarəsi var və bu idarə kəhrizlərin bərpası istiqamətində mühüm işlər görür.

***– Yunis dayı, sağ olun ki, bu peşə ilə bağlı bizə maraqlı məlumatlar verdiniz.***

*– Siz də sağ olun.*

***Bəli, ağsaqqal Yunis İbrahimovla söhbətimiz bir xeyli çəkdi. Öz peşəsinin incəliklərindən böyük həvəslə danışan bu təcrübəli kankanın həyatı, sözün həqiqi mənasında, özgələrinə quyu qazmaqla keçsə də, bu quyulardan axan sular sahiblərinə xeyir, bərəkət, özünə isə savab qazandırıb. Müasir dövrdə texniki imkanlar nə qədər artsa da, kankanın "çörək ağacı" keçmişdə olduğu kimi yenə də külüng, keçəbel, dol, isgənə, çarx və digər əşyalardır. Necə deyərlər, insanların suya olan təminatında bu peşənin tələb etdiyi zəhmət heç bir yeniliyə güzəşt etməyi bacarmır. Bəlkə də buna görədir ki, kankanlıq həm də müqəddəs peşədir.***

**Səbuhi HƏSƏNOV**

*Yeni nəşrlər*

# Dəyərli sorğu kitabı

*Bu gün müəllim və tələbənin eyni məkanda olma məcburiliyini aradan qaldırmaq imkanlarına malik olan distant təhsil forması sosial sifarişə yönəlikliyi ilə diqqəti cəlb edir. Artıq cəmiyyətdə təlimin bu yeni formasının potensial istifadəçiləri olan konkret sosial qruplar formalaşır. Distant təhsil həm də müasir texnologiyanın məhsulu kimi hər bir ölkənin ali məktəblərinin dünya təhsil şəbəkəsinə qoşulmasına şərait yaradır. Onu görə də Naxçıvan Dövlət Universitetində distant təhsilin elmi-texnoloji, pedaqoji-metodik əsaslarının işlənib hazırlanmasına xüsusi diqqət yetirilir. Son dövrlər distant təhsil üzrə professor-müəllim heyəti və tələbələr üçün təhsil-metodik materialların xüsusi dəstinin tərtib edilməsi, elektron kitabxana fondları ilə iş aparılması sahəsində xeyli işlər görülmüş, faydalı tədbirlər həyata keçirilmişdir.*

Distant təhsil sahəsində görülmüş və görülməkdə olan işlər fonunda universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlının "Distant təhsil: terminlər+" kitabını uğurlu nəşrlərdən hesab etmək olar. Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrifi ilə dərs vəsaiti kimi nəşr olunmuş bu kitabın elmi redaktoru Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov, rəyçiləri isə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli və Naxçıvan Dövlət Universitetinin müəllimi, elektron təhsil üzrə mütəxəssis Hüseyn Qasımovdur.

Bu dərs vəsaitinin başlıca əhəmiyyəti ondan ibarətdir ki, kitabın lüğət hissəsində distant təhsil üzrə ölkəmizdə ilk dəfə söz və söz birləşməsi ilə ifadə olunan 800-dən artıq terminin lüğətçilik prinsipləri əsasında yığcam, konkret elmi izahı verilmişdir. Distant təhsil terminologiyasının hazırlanması işini aktuallaşdıran bir çox cəhətlər vardır. Hər şeydən əvvəl göstərməliyik ki, biz əgər ölkəmizdə pedaqoji elmin distant pedaqogika istiqamətinin formalaşdırılması qayğısına qalmağı lazım biliriksə, onda distant pedaqogikanın "əlifbası" ola biləcək anlayışların, terminlərin, ifadələrin düzgün elmi izahından başlamalıyıq.

Müəllif haqlı olaraq distant təhsil sahəsində görüləcək çoxtərəfli və məqsədyönlü işlər sırasında terminologiya məsələsini hazırlayıb araya-ərsəyə gətirməyi vacib hesab etmiş və bu sahədə mövcud boşluğun aradan qaldırılması işinə təşəbbüs göstərmişdir.

Müəllif pedaqogika elminin müxtəlif sahələrinə aid olan hər hansı bir termin haqqında qısa məlumat hazırlamaq üçün müxtəlif mənbələr üzrə axtarışlar aparmış, müxtəlif internet resurslarından istifadə etmişdir. Kifayət qədər vaxt itkisinə, həm də yorucu bir işə qoşulan müəllif sonda uğurlu nəticələr əldə etməyə nail olmuşdur.




Kitabda terminoloji vahidlər yığcam şəkildə izah və təhlil edilir. Çətin və mürəkkəb bir proses kimi lüğət hazırlamaq işi beynəlxalq terminlərin Azərbaycan dilinə müvafiq izahatları ilə birgə tərcüməsi zamanı adekvat sözlüyün yaradılmasına xüsusi diqqət yetirməyi tələb edir. Müəllif bu cəhəti də nəzərə almışdır. Məhz buna görə də vəsaiti distant təhsillə bağlı sorğu kitabı adlandırmaq olar.

"Distant təhsil: terminlər+" kitabının adından da göründüyü kimi, dərs vəsaitinin əsasını distant təhsilə aid terminlərin izahı təşkil etsə də, ona edilmiş əlavələr də az maraq doğurmur. Distant təhsilə sistemli yanaşma, bu təhsil formasının bir sıra nəzəri və praktik məsələlərinə dair mülahizələr kitabın əhəmiyyətini xeyli artırır. Kitabda Naxçıvan Muxtar Respublikasında təhsilə dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilməsi, onun infrastrukturunun müasirləşdirilməsi, təhsilin elektronlaşdırılması, Naxçıvan Dövlət Universitetində ən müasir elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılmasından bəhs edən materiallar da öz əksini tapmışdır.

Kitabın praktik əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Ali məktəbin müəllim və tələbələri (təhsilverənlər və təhsilalanlar) bu kitabdan faydalana bilərlər. Buradakı lüğət məqalələrində və əlavə edilmiş materiallarda distant təhsilin inkişaf tarixi öz əksini tapıb. Kitab distant təhsilin vəziyyətini əks etdirən mənbə kimi də maraq doğurur.

Distant təhsil terminləri üzrə lüğətlərin hazırlanması həmin sahə üzrə mütəxəssislərin, ali məktəb tələbələrinin biliyinin, iş qabiliyyətinin artırılması, yaradıcılıq imkanlarının genişlənməsi baxımından olduqca əhəmiyyətlidir.

Dosent Qurban Qurbanlı filoloji-dilçilik, habelə pedaqoji elmi axtarışlar, lüğətçilik sahəsindəki elmi-nəzəri və əməli fəaliyyəti ilə tanınan alimlərimizdəndir. Çoxsaylı tədqiqatları həmişə maraqla qarşılanmış, Azərbaycan və rus dillərində ədəbiyyatın qarşılıqlı tərcüməsi işində xeyli əmək sərf etmiş, bu sahə üzrə mənbələrin işıq üzü görməsində davamlı və əhəmiyyətli xidmətlər göstərmişdir.

*Bu kitab da müəllifin yaradıcı işinin, gərgin əməyinin bəhrəsidir. İnamla demək olar ki, yüksək məsuliyyət hissi ilə hazırlanmış bu vəsait Azərbaycan məkanında distant təhsilin həyata keçirilməsi işində uğurla istifadə edilə bilən dəyərli və ilk sorğu kitabıdır.*

**Vahid RZAYEV**
***pedaqogika üzrə fəlsəfə doktoru***

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 495